# Məktəbdə əyləncəli "Kimya gecəsi"



Məktəbdə müxtəlif mövzularda sinifdənxaric tədbirlərin keçirilməsi şagirdlərin təlimə motivasiyasının yüksəldilməsində mühüm rol oynayır. Ona görə də məktəbimizdə müxtəlif fənlər üzrə tədbirlərin hazırlanıb keçirilməsi diqqət mərkəzində saxlanılır.

Bu günlərdə keçirilən "Kimya gecəsi" də belə tədbirlərdən idi. "Kimyaçı" dərnəyinin üzvləri və kimya həvəskarlarının fəal iştirakı ilə keçirilən gecə bütün tədbir iştirakçılarının marağına səbəb oldu.

Kimyaya aid müxtəlif əyani və təbliğat-təşviqat vasitələri ilə bəzədilmiş akt zalında təşkil olunmuş tədbirin əvvəlində qeyri-üzvi kimyaya həsr olunmuş mahnı səsləndirildi. Tədbirin açılışından sonra kimya müəllimi VIII sinif şagirdləri tərəfindən nümayiş etdirilən təcrübəyə (sınaq şüşəsindəki bənövşəyi rəngli məhlulun üzərinə "su" tökməklə onun şəffaflaşdırılması) istinadən tədbir iştirakçılarına maraqlı bir sualla müraciət etdi: "Sizcə, niyə bənövşəyi rəngli mürəkkəb məhlulu şəffaf suya çevrildi?". O bildirdi ki, suala cavab tapmaq üçün şagirdlərin tədbirin sonuna qədər vaxtları var və düzgün cavab verənlər mükafatlandırılacaq.

Sonra kimyanın inkişaf tarixindən, mühüm kimyəvi kəşflərdən, kimyanın həyat və məişətimizdəki rol və əhəmiyyətindən bəhs edən videoçarx nümayiş etdirildi. VIII sinif şagirdləri kimya və kimyəvi hadisələr barədə maraqlı informasiyalar verdilər.

X və XI sinif şagirdlər G.Kazımova və R. Həsənovun aparıcılığı ilə keçirilən tədbirdə IX sinif şagirdləri ölkəmizdə kimyanın inkişafı, ilk kimyaçı alimimiz M.Xanlarov və ilk kimyaçı akademikimiz Y.Məmmədəliyev, XI sinif şagirdləri kimyanın əsas qanunları, D.Mendeleyev və onun kəşf etdiyi elementlərin dövrü sistemi barədə məlumatları təqdim etdilər.

Gecənin iştirakçıları X sinif şagirdləri tərəfindən səhnələşdirilmiş "Oksigenin məhkəməsi"nə maraqla tamaşa etdilər. "Məhkəmə prosesində" "vəkil" tərəfindən təqdim olunan və "hakim" tərəfindən nümayiş etdirilən videoçarxda oksigen, onun təbiətdəki rolu və əhəmiyyəti haqqında tədbir iştirakçılarına geniş məlumatlar verildi. Tədbirdə həmçinin M.F.Axundzadənin "Molla İbrahimxəlil kimyagər" komediyasından kiçik bir səhnəcik göstərildi.

VII sinif şagirdləri tərəfindən təqdim edilən "Kimyəvi elementlərin bəhsi" ədəbi-bədii kompozisiyası videoreaksiyalarda maraqla qarşılandı.

Sonra "Gənc kimyaçı" dərnəyinin orqanı olan "Kimyaçı" bülleteninin təzə xəbərləri oxundu.

Kimya müəlliminin rəhbərliyi ilə şagirdlər tərəfindən əyləncəli və maraqlı təcrübələr nümayiş etdirildi.

Sonra tədbirin əvvəlində verilmiş suala şagirdlərin cavabları dinlənildi. Suala düzgün və ətraflı cavab verən şagirdlər mükafatlandırıldılar.

"Kimya gecəsi"ni məktəbin direktoru İ.Verdiyev yekunlaşdırdı. O çıxış edərək əmin olduğunu bildirdi ki, bu tədbir şagirdlərin kimyaya olan marağını daha da artıracaq və onlar bu fənni daha yaxşı öyrənməyə çalışacaqlar.

Tədbir kimya həvəskarlarının şərəfinə üzvi kimyaya həsr olunmuş şən bir klipin nümayişi ilə başa çatdı.

**İradə VAHABOVA,**
*Oğuz rayonundakı Yaqublu kənd tam orta məktəbinin kimya müəllimi*